**AR NRYTN "AzInTelecom" MMC-nin Sertifikatlaşdırma departamenti**

# AYRI-SEÇKİLİYİN LƏĞV EDİLMƏSİNƏ DAİR BƏYANNAMƏ

AR NRYTN "AzInTelecom" MMC-nin rəhbərliyi Sertifikatlaşdırma departamentinin sertifikatlaşdırma zamanı AZS ISO/IEC 17065-2014 "Uyğunluğun qiymətləndirilməsi. Məhsulların, proseslərin və xidmətlərin sertifikatlaşdırılması üzrə orqanlara olan tələblər" standartının ayrı-seçkiliyin ləğv edilməsinə qarşı irəli sürdüyü tələblərinə cavab verən fəaliyyətin həyata keçirməyini öhdəsinə götürür.

**Sertifikatlaşdırma departamenti fəaliyyətində ayrı-seçkiliyin ləğv ediləcəyinin təmin edilməsi üçün qarşısında aşağıdakı məqsədləri qoyur:**

- uyğunluğun qiymətləndirilməsi və sertifikatlaşdırma ilə bağlı icra etdiyi bütün digər fəaliyyət növləri zamanı ayrı-seçkiliyə yol verməməsini;
- sertifikatlaşdırma prosesində maraqları təmsil edilən bütün tərəflərin, o cümlədən sertifikatlaşdırma sifarişçilərinin və dövlət akkreditasiya və nəzarət orqanlarının maraqlarının qorunmasını.

**Qeyd olunmuş məqsədlərə nail olmaq üçün Sertifikatlaşdırma departamenti qarşısında aşağıdakı vəzifələri qoyur:**

- departamentin akkreditasiya sahəsi çərçivəsində telekommunikasiya vasitələri və qurğularının sertifikatlaşdırılması üzrə sifarişlərin bütün müraciət edən fiziki və ya hüquqi şəxslər tərəfindən alınmasını;
- uyğunluğun qiymətləndirilməsinin, təftişlərin və sınaqların ayrı-seçkiliyin ləğv edilməsi şərti ilə həyata keçirilməsini, şikayətlərin və apelyasiyaların ayrı-seçkiliyin ləğv edilməsi şərti ilə baxılmasını;
- departament heyətinə ayrı-seçkiliyin ləğv edilməsi tələblərinə cavab verən, ilk növbədə sifarişçilərin maraqlarını təmsil edə bilməyəcək və ya maraqlarına zərər gətirə bilməyəcək, şəxslərin cəlb edilməsini;
- ayrı-seçkiliyin ləğv edilməsi üçün sifarişin icra edilməsindən imtina etmək şərtlərinin müəyyən edilməsini.

**Ayrı-seçkiliyin ləğv edilməsinə dair siyasətin həyata keçirilməsi üzrə məsuliyyətini dərk edərək, AR NRYTN "AzInTelecom" MMC-nin rəhbərliyi aşağıdakıları öhdəsinə götürür:**

- qeyd olunmuş vəzifələri icra edərək məqsədlərinə nail olmaq üçün müvafiq şəraitin təmin edilməsini;
- departament heyətinin və rəhbərliyinin ayrı-seçkiliyin ləğv edilməsi üzrə cavabdehliyinin müəyyən edilməsini;
- departament heyətinin əmək haqqılarının keçirdikləri uyğunluğun qiymətləndirilməsi, təftişlər və ayrı-seçkiliyin ləğv edilməsinə dair hər hansı digər tədbirlərin nəticələrindən asılı olmamasının təmin edilməsini.

**AR NRYTN "AzInTelecom" MMC-nin direktor müavini, direktor v.m.i.e.** ______ imza **Tağı Tağı-Zadə**

M.Y.

**Tarix: 29 mart 2021-ci il**

**AIT-SD-PL(Ayrı-seçkiliyin ləğv edilməsinə dair Bəyannamə)-1.0**

Vizalar:

| Ad və soyad | Vəzifə | İmza | Tarix (DD/MM/YYYY) |
|---|---|---|---|
| Orxan Mikayılov | Sertifikatlaşdırma departamentinin rəhbəri | | 29.03.2021 |